# Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan…

## Ən yüksək seçki fəallığı bu bölgələrdə oldu

Prezident seçkilərində ölkə üzrə seçici fəallığı 76,73 faiz təşkil edib. Əhali işğaldan azad edilmiş ərazilərdə yerləşən məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılıb. Bu bölgədə yaradılan 26 seçki məntəqəsi üzrə seçici fəallığı 93 faizdən çox olub.

3

# Qarabağ, Şərqi Zəngəzur, Naxçıvan…

## Ən yüksək seçki fəallığı bu bölgələrdə oldu

**Dünən keçirilən prezident seçkilərində ölkə üzrə seçici fəallığı 76,73 faiz təşkil edib. Əhali işğaldan azad edilmiş ərazilərdə yerləşən məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılıb. Bu bölgədə yaradılan 26 seçki məntəqəsi üzrə seçici fəallığı 93 faizdən çox olub.**



Həmçinin seçki dairələri üzrə də ən yüksək nəticə 83.28 faizlə 122 saylı Xankəndi Seçki Dairəsində qeydə alınıb. Qarabağ və Şərqi Zəngəzur əhalisini təşkil edən dairələrdə seçki fəallığı ölkə üzrə orta göstəricidən yüksək olub. Belə ki, seçici fəallığı 123 saylı Kəlbəcər seçki dairəsində 80.57 faiz, 121 saylı Laçın seçki dairəsində 79.70 faiz, 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsində 78,86 faiz, 118 saylı Ağdam şəhər seçki dairəsində 78.64 faiz, 119 saylı Ağdam kənd seçki dairəsində 78.25 faiz təşkil edib.

Naxçıvanda mövcud olan 6 seçki dairəsində də seçici fəallığı 82 faizdən yüksək olub və muxtar respublika yenə də ölkə üzrə öncül mövqeyini qoruyub.

Qeyd edək ki, paytaxtda mövcud olan 31 seçki dairəsi üzrə ən yüksək nəticələr hər biri 83 faizdən artıq göstərici ilə 10 saylı Binəqədi üçüncü Seçki Dairəsi və 15 saylı Yasamal birinci Seçki Dairəsinə aid olub.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 8 fevral, № 27.- S.1, 3.